No: 01 2025
http://doi.org/0000-0000-0000-0000
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# MAGİSTRANT PEDAQOQLARIN PEŞƏ KOMPETENSİYALARININ FORMALAŞMASINDA MAGİSTR DİSSERTASİYASININ ROLU

**Lalə Allahverdiyeva**
https://orcid.org 0009- 0000- 5446-2268

*laleallahverdiyeva@ndu.edu.az*

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif: laleallahverdiyeva@ndu.edu.az; Tel.: +-994 (50) 378-05-07*

## XÜLASƏ

Məqalədə magistrant pedaqoqların peşə kompetensiyalarının formalaşmasında magistr dissertasiyasının rolundan bəhs edilir. Magistrantların elmi tədqiqatçılıq fəaliyyətinin təzahürü olan magistr dissertasiyası tələbənin peşə hazırlığının səviyyəsini, onun müstəqil elmi tədqiqatlar aparmaq və peşə fəaliyyəti sahəsində praktiki problemləri həll etmək bacarığını göstərən yekun ixtisas işidir. Magistr dissertasiyası magistratura proqramının sonunda magistrantın hazırlığının keyfiyyətinin ayrılmaz göstəricisidir. Bu fəaliyyət növü müəllifin nəzəri bilik potensialını, müxtəlif anlayış və nəzəriyyələri şərh etmək bacarığını, tədqiq edilən problemin yaradıcı şəkildə qavramaq bacarığını və ixtisas üzrə bilik səviyyəsini, potensialını göstərmək üçün nəzərdə tutulmuşdur. Magistr dissertasiyasının yazılması üçün magistrantdan tələb olunan magistratura hazırlığı istiqamətində nəzəri və praktiki biliklərin sistemləşdirilməsi, möhkəmləndirilməsi və genişləndirilməsi, onların konkret tədqiqat problemlərinin həllində tətbiqi; tədqiq olunan psixoloji hadisə və ya prosesin elmi ideyasını və mahiyyətini əsaslandır-maq üçün nəzəri tədqiqatların aparılması; müstəqil iş aparmaq bacarıqlarının nümayiş etdirilməsi, tədqiq olunan psixoloji hadisə və ya prosesin təhlilini təmin edən metodların əsaslandırılması və istifadəsi, onun inkişaf meyllərinin və qanunauyğunluqlarının müəyyən edilməsi; tədqiq olunan psixoloji hadisənin və ya prosesin təkmilləşdirilməsi və inkişafı üçün konkret təkliflərin hazırlanması; magistrantın təhsil və ya elmi müəssisədə müstəqil işləməyə hazır olduğunu nümayiş etdirə bilməsinə dair fikirlər məqalədə şərh edilmişdir. Məqalədə magistir dissertasiyasının tərtibinə verilən tələblər, dissertasiyanın hazırlanması prosesi dövründə magistrantda formalaşması zəruri olan kompetensiyalar, elmi rəhbərin magistir dissertasiyasının hazırlanmasında rolu və funksiyaları, dissertasiyanın hazırlanmasında ixtisas üzrə təhsil proqramında nəzərdə tutulmuş kompenesiyalar və digər məsələlər təhlilə cəlb edilmişdir.

**Açar sözlər**: *magistr dissertasiyası, peşə kompetensiyaları, təhsil proqramı, elmi tədqiqat işi, tədqiqatçılıq bacarığı.*

## GİRİŞ

Magistr dissertasiyası təhsil sahəsi və magistratura proqramı üzrə Dövlət təhsil standartının tələblərinə uyğun olaraq fundamental və xüsusi hazırlıq səviyyəsini, habelə mütəxəssisin elmi fəaliyyət sahəsində əldə edilmiş bilikləri təcrübədə tətbiq etmək bacarığını əks etdirir. Magistr dissertasiyası ali peşə təhsilinin yekun mərhələsi olmaqla, ümumi mədəni və peşə kompetensiyalarının yenilənməsini və tətbiqini təmin edir, elmi işlərin yazılması vərdişlərinin və mədəniyyətinin formalaşdırılmasını, elmi tədqiqat işində bir sıra metodik ideyaların və metodiki bacarıqların seçilmiş peşəkar fəaliyyət sahəsi üzrə mövcudluğunu nümayiş etdirir.

Magistrantların elmi tədqiqatçılıq fəaliyyətinin təzahürü olan magistr dissertasiyası ictimai müdafiə üçün hazırlanmış və tələbənin peşə hazırlığının səviyyəsini, onun müstəqil elmi tədqiqatlar aparmaq və peşə fəaliyyəti sahəsində praktiki problemləri həll etmək bacarığını göstərən yekun ixtisas işidir.

"Elmi tədqiqatçılıq yeni inteqrasiya formalarının axtarılmasına və təkmilləşdirilməsinə xidmət göstərir. Ona görə də təhsildə aparılan elmi tədqiqatlar aşağıdakı məqsədləri özündə birləşdirir:

- qərar qəbul edənlərin etibarlı məlumatlarla təmin edilməsi;
- təhsildə ən yaxşı təcrübələrin öyrənilməsi və yayılması;
- təhsildə mövcud olan problemlərin aşkar edilməsi və təkmilləşdirilməsi" **(6, 35.)**

Sadalanan bu məqsədlərin həyata keçirilməsi üçün təhsil sahəsində elmi tədqiqatların iki istiqamətdə aparıldığı müəyyən (9, 4) edilmişdir:

Birinci halda aparılan tədqiqatlar beynəlxalq təcrübələrə inteqrasiya məqsədilə aparıla bilər və burada innovativ fikirlər tədqiqat obyekti ola bilər.

İkinci halda tədqiqat mövzusunun analoji mənbəyi təhsilin gündəlik idarə olunmasında müəllim və rəhbərliyin qarşılaşdıqları problemlər ola bilər ki, bu problem-lər də təlim prosesinin səmərəliliyini aşağı salır.

Məlumdur ki, bakalavr səviyyəsi əsas fundamental hazırlığı, magistratura proqramları isə dərinləşdirilmiş ixtisas hazırlığını təmin etməlidir. Ölkəmizdə bakalavr hazırlığı sənayenin kütləvi tələbatının ödənilməsinə yönəldiyi halda, magistr hazırlığı idarəetmənin ən yüksək səviyyəsini formalaşdırır.

## TƏDQİQAT METODLARI

Məqalə yazılarkən aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1. Nəzəri təhlil. Problemin hansı səviyyədə tədqiq edildiyini aşkara çıxarmaq məqsədilə mövcud elmi pedaqoji və metodiki ədəbiyyat öyrənilərək təhlil edilmiş, ümumiləşdirmələr aparılmış və buna müvafiq olaraq müəyyən nəticələr çıxarılmışdır.
2. Pedaqoji müşahidə. Problemlə bağlı magistratura səviyyəsində təhsil alan tələbələrlə disssertasiya işinin tərtibinə dair bilik səviyyələrinin müəyyən edilməsi məqsədilə şifahi

söhbətlər aparılmış, onların tədqiqatcılıq fəaliyyətini əks etdirən bacarıqları müəyyən olunmuşdur.

3. Pedaqoji müsahibə. Problemi araşdırmaq, onun haqqında geniş məlumat almaq, tədqiqatın gedişinə aydınlıq gətirmək və bu sahədə səmərəli fəaliyyət göstərmək üçün magistratura səviyyəsində təhsil alan pedaqoqlarla və magistrlik dissertasiya rəhbərləri ilə müsahibələr aparılmışdır.

**MÜZAKİRƏ.**

Magistratura pilləsinin müstəqil təhsil səviyyəsi kimi formalaşması və inkişafı prosesi magistrlərin hazırlanması metodologiyasının nəzəri cəhətdən yenidən nəzərdən keçirilməsinə, yeni tədris metodlarının, yanaşmalarının və texnoloji həllərin işlənib hazırlanmasına yönəlmiş tədbirlər kompleksi ilə müşayiət olunur. Bu gün bu prosesin obyektiv ilkin şərti vardır. Təşkilat və müəssisələrin elmi-innovativ fəaliyyətində praktik tətbiqi üçün xüsusi bilik, bacarıq və vərdişlərə yiyələnmiş magistrant tələbələrin sayının artırılması tendensiyası artıq aydın şəkildə özünü göstərməyə başlamışdır.

Bu şərt bütün məzunlar üçün öz təhsillərini təkmilləşdirmək və peşə kompetensiyalarını artırmaq üçün yeni perspektivlər açır, çünki sirr deyil ki, müəssisə və təşkilatların iqtisadi, sosial və digər idarəetmə sektorlarında texniki təlim sahələri sırasında əsasən magistrantlar işləyirlər.

Magistratura proqramlarının təhlili göstərir ki, bu proqramlar kompetensiya əsaslı yanaşma prinsipinə cavab verən müvafiq fəaliyyət sahələrində dərin peşəkar bilik, bacarıq və qabiliyyətlərin əldə edilməsini nəzərdə tutur. Bir çox universitetlər əsasən tədqiqat yönümlü və bir qədər az təcrübə yönümlü proqramları aydın şəkildə fərqləndirən ixtisaslaşdırılmış magistr proqramları formalaşdırmağa başlamışdır. Bununla belə, magistrantın peşə fəaliyyət sahəsi digər iş sahələrini və eləcə də, məsələn, ali və əlavə peşə təhsili müəssisələrini də əhatə edir.

Magistr dissertasiyası magistrant tərəfindən elmi rəhbərin göstərişinə uyğun olaraq aparılan müstəqil elmi tədqiqatlar əsasında bütün təhsil müddəti ərzində tamamlanır. Magistr dissertasiyası üzrə iş elmi-tədqiqat işlərinə ayrılan saatlar magistratura tədris planının vaxt bölgüsü çərçivəsində həyata keçirilir. Dissertasiya magistrantın peşə bilik səviyyəsini, onun metodiki hazırlığını, psixoloji-pedaqoji tədqiqatların işlənib hazırlan-ması, təşkili və aparılması bacarıqlarına yiyələnməsini, onun nəticələrinin riyazi metodlardan istifadə etməklə ixtisaslı təhlilini nümayiş etdirməyə yönəlir. Magistrant həmçinin elmi və peşəkar ədəbiyyatla işləmək, əldə edilmiş faktları ümumiləşdirmək və təhlil etmək bacarığını nümayiş etdirməli, tədqiqat materiallarını səriştəli təqdim etməlidir.

Xarici ölkə təcrübəsi (8; 10) göstərir ki, magistratın mövzunun xüsusi məsələləri üzrə əlavə məsləhətlərə ehtiyacı olarsa, ona elmi rəhbərlə yanaşı, elmi məsləhətçi də təyin edilə bilər.

Ümumiyyətlə, elmi rəhbər magistr dissertasiyasının hazırlanmasına rəhbərlik edərkən sadalanan fəaliyyətlərdə iştirak etməlidir:

• magistr dissertasiyasının mövzusunun seçilməsinə və onun düzgün formalaşdırılmasına, tədqiqatın planlaşdırılmasına, lazımi ədəbiyyatın seçilməsinə və s. köməklik göstərməli;

• magistrantla birlikdə magistr dissertasiyasının məqsəd və vəzifələrini, onun strukturunu, metodoloji əsaslarını, tədqiqatın nəzəri və empirik əsaslarını müəyyən etməli;

• dissertasiyanın məzmunu, işin ardıcıllığı və tərtibatı ilə bağlı məsələlər üzrə magistratranta məsləhət verməli;

• empirik materialın toplanmasında, tədqiqat nəticələrinin sınaqdan keçirilməsində (elmi məqalələrin nəşri, konfranslarda iştirak və s.) elmi, metodiki və təşkilati işlərdə köməklik göstərməli;

• bütövlükdə magistr dissertasiyasının hazırlanmasına daimi nəzarəti həyata keçirməli;

• hazırlanmış dissertasiyanı təhlil etmək, zəruri hallarda çatışmazlıqların aradan qaldırılması üçün göstəriş və tövsiyələr vermək və onların aradan qaldırılması üçün müddətlər müəyyən etməli;

• zəruri hallarda magistrantın dissertasiyaya hazırlıq cədvəlindən kənara çıxması barədə kafedra müdirinə, magistratura şöbəsinin müdirinə operativ məlumat verməli;

• yekun dövlət attestasiyası başlamazdan əvvəl işin yazılı rəyini hazırlamaq, magistr dissertasiyasının müdafiəyə buraxılmasının mümkünlüyü barədə rəy vermək;

• kafedrada, fakültə Elmi Şurasında tədqiqatın şərtləri və ya təcrübə ehtiyacları dəyişdikdə yekun ixtisas işinin mövzusuna düzəlişlər edilməsi barədə vəsatət qaldırmalı;

• buraxılış ixtisası işlərinin müdafiəsi üzrə Dövlət Attestasiya Komissiyasının iclasında iştirak etməli və iş haqqında rəy verməli;

• mətnlərin alınma olub-olmadığını yoxlamaq üçün nəzərdə tutulmuş sistemdən istifadə edərək magistr dissertasiyasının yazılmasının müstəqilliyini qiymətləndirməli;

• magistr dissertasiyasının seçilmiş mövzusu və karyera planları nəzərə alınmaqla magistrantın fərdi təhsil trayektoriyasının formalaşmasına köməklik göstərməli;

• magistr dissertasiyasının müdafiəsi prosedurunun qaydası və məzmunu, magistrantlara qoyulan tələblər barədə məlumat verməli.

F.Rüstəmov yazır ki, “Bütün hallarda, tələbələrin müstəqil işin icrası zamanı elmi rəhbərin məsləhətlərinə ehtiyacı var. Odur ki, elmi rəhbər magistrant ilə müntəzəm əlaqə saxlamalı, tədqiqatın gedişini, üzləşdiyi çətinlikləri aradan qaldırmağa kömək göstərməli, korreksiya işi aparmalıdır. Magistr qarşısında yeni məqsədlərin qoyulması, onun fəaliyyətinin stimullaşdırılması və səmərəliliyinin təmin olunması, müsahibə, sual-cavab, yazılı hesabat və s. “magistr – müəllim” əməkdaşlığının məhsuldarlığını təmin edir ki, nəticədə bu əqli əməyin sonu uğurlu olur” (4, s. 267).

Magistr dissertasiyasının məqsədlərindən biri dissertasiya müəllifinin magistratura pilləsində formalaşmış ümumi mədəni və peşə kompetensiyalarını həyata keçirmək və onların bir tərəfdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinin müvafiq qərarı ilə təsdiq edilmiş ixtisasın Təhsil

Standartının tələblərinə uyğunluğunu müəyyən etməkdir. Magistrantların elmi-tədqiqat işi ümumi mədəni və peşə kompetensiyalarının inkişafına yönəlmişdir.

Magistr dissertasiyası təcrübə və elmi-tədqiqat işi dövründə həyata keçirilir və magistrin hazırladığı fəaliyyət işi pedaqoji, elmi tədqiqat, idarəetmə ilə bağlı müstəqil layihə, metodik və məntiqi tamamlanmış işdir. Onu başa vurarkən magistrantlar peşə fəaliyyətlərinə dair xüsusi məlumatı peşəkarlıqla təqdim etmək, elmi cəhətdən mübahisə etmək və öz nöqteyi-nəzərini müdafiə etmək, əldə edilmiş dərin bilik, bacarığını inkişaf etmiş ümumi mədəni və peşə kompetensiyaları əsasında müasir səviyyədə problemləri müstəqil həll etmək bacarığını nümayiş etdirməlidirlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 31avqust 2012-ci ildə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı. Magistratura səviyyəsinin ixtisas üzrə təhsil proqramı" (1) 060119 – Pedaqogika ixtisası üzrə Təhsil Proqramında elmi –tədqiqat sahəsi üzrə magistrantın hazırlıq səviyyəsinə aşağıdakı tələblər qoyulmuşdur:

- real pedaqoji proseslərin və hadisələrin öyrənilməsində elmi-pedaqoji, təşkilati və metodik məsələlərin həllində pedaqoji və metodik üsullardan istifadə etmək;
- elm və texnikanın nailiyyətlərindən, qabaqcıl təcrübədən istifadə etməklə peda-qogika sahəsində aparılan elmi-tədqiqat işlərini təhlil etmək və nəticələri ümumiləş-dirmək;
- konfranslar, seminarlar, simpoziumlar hazırlamaq və keçirmək;
- elmi nəşrlər hazırlamaq və redaktə etmək.

Magistr dissertasiyasının mövzusu tələbənin əsas ixtisas sahəsini əks etdirməlidir. Magistr dissertasiyası bakalavr səviyyəsindəki digər işlərdən problemin nəzəri cəhətdən daha dərindən öyrənilməsi və elmi istiqaməti ilə fərqlənir. Ən ümumi formada magistr dissertasiyasında üç əsas elementi ayırd etmək olar: nəzəri təhlil, empirik tədqiqat və tədqiq olunan problemlərin həlli üçün praktiki tədbirlərin və tövsiyələrin işlənib hazırlanması. Dissertasiya işində bu elementlər magistrantın elmi rəhbəri ilə birlikdə müəyyən etdiyi müxtəlif nisbətlərdə və birləşmələrdə ola bilər.

"Magistrant dissertasiya yazarkən başqalarının əsərlərindən köçürməməli, başqalarının elmi axtarışlarını, tapıntılarını, ümumiləşdirmələrini, çıxardığı nəticələri "özününküləşdirməməlidir". Magistr əsil tədqiqatçı fəaliyyəti göstərməli, elmi fəaliyyə-tin, elmi axtarışların çətinliyini öz çiyinlərində duymalı, öz "kəşfləri" ilə sevinc hissi yaşamalı, yazmağın nə qədər ağır və "məşəqqətli əmək" olduğunu öz şəxsi təcrübəsində anlamalıdır. Yalnız bu halda magistr dissertasiyası tələbə elmi işinin ən yüksək təzahürü, yekunu və nəticəsi kimi meydana gələ bilər" (4, 266).

Magistr dissertasiyasının ümumiləşdirmə xarakterini, magistr hazırlığının nəticəsi olduğunu, həm də müstəqil orijinal elmi tədqiqat olduğunu nəzərə alaraq, magistr dissertasiyasında həll olunan aşağıdakı vəzifələri qeyd etmək olar:

- magistrantın magistratura səviyyəsi üzrə təhsil zamanı əldə etdiyi nəzəri və praktiki bilik, bacarıq və vərdişlərin ümumiləşdirilməsi və sistemləşdirilməsi;

- həm təhsil sahəsi, həm də magistrantın ixtisas, tədqiqat, analitik və metodik bacarıqları baxımından seçilmiş məsələlər sahəsində biliklərini nümayiş etdirilməsi;

- magistrantın elmi-nəzəri biliklər əsasında elmi-tədqiqat təcrübəsinin keçdiyi təhsil təşkilatının (təşkilatlarının) elmi problemlərinin müstəqil təhlili, həlli və ya dərin tədqiqatlar həyata keçirmək bacarığının nümayiş etdirilməsi;

- tədqiqatın nəticələrinə əsasən təlim və ixtisaslaşma sahəsində seçilmiş mövzu çərçivəsində praktiki, metodoloji yenilik, müstəqil yaradıcılıq, yeni elmi əsaslandırılmış problemləri həll etmək bacarığının nümayiş etdirməsi;

- magistratura hazırlığı istiqamətinə uyğun olan biliklər sahəsində elmi tədqiqat metodlarının və texnologiyalarının yaradılması bacarıqlarını göstərə bilməsi;

- fərdlərə və qruplara psixoloji təsir proqramlarını hazırlamaq və onların effektivliyini qiymətləndirmək bacarıqlarının nümayiş etdirilməsi.

Magistr dissertasiyasında yeni hadisələrin, qanunauyğunluqların, amillərin təsviri, digər elmi mövqelərdən və ya yeni perspektivdən əvvəllər məlum müddəaların sintezi, nəzəri və empirik tədqiqatların nəticələri, nəzəri əsaslandırma və yeni elmi tədqiqatların işlənməsi daxil olmaqla yeni material olmalıdır. O, müəllif tərəfindən irəli sürülən bir sıra elmi fərziyyələri ehtiva etməli, müəllifin nəzəri biliklərdən və praktiki bacarıqlardan istifadə edərək müstəqil elmi tədqiqat aparmaq, peşəkar problemləri görmək, onların həlli üsul və yollarını bilmək bacarığını sübut edən daxili birliyə malik olan müdafiə və onların sübutunun nəticələrini özündə birləşdirir. Ümumiyyətlə, pedaqoji istiqamət üzrə magistr dissertasiyası aşağıdakı tələblərdən birinə cavab verməlidir:

- məcmusu psixoloji və pedaqoji elmdə konkret sahələrin inkişafı üçün vacib olan nəzəri və eksperimental tədqiqatların yeni nəticələrini əks etdirməli;

- psixologiya və pedaqogika üçün vacib olan konkret elmi və ya praktiki problemin həlli üçün yeni metodların və metodoloji yanaşmaların işlənib hazırlanmasını ehtiva etməli;

- nəticələrin tətbiqi problemləri yüksək elmi səviyyədə həll etmək imkanında olmalıdır.

Sadalanan tələblər çərçivəsində magistr dissertasiyasının əsasını müxtəlif mürəkkəblik səviyyələrində həllərin modelləşdirilməsi və ya tərtibi təşkil edə bilər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 31 avqust 2012-ci ildə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı. Magistratura səviyyəsinin ixtisas üzrə təhsil proqramı" (1) 060119 – Pedaqogika ixtisası üzrə magistr elmi-tədqiqat işini yerinə yetirmək nəticəsində magistrant aşağıda sadalanan peşə kompetensiyalarını bilməli və bacarmalıdır:

- elmi-tədqiqat işlərini planlaşdırmağı;
- tədqiqat mövzusu seçməyi;
- ədəbiyyat siyahısının tərtibini;
- elmi-tədqiqat işi aparmağı;

- elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;

- alınmış nəticələrin praktik əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməyi;

- elmi-tədqiqat işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəyyənləşdirməyi;

- yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini;

- elmi-tədqiqat işinin nəticələrinin çap üçün hazırlanmasını;

- elmi-tədqiqat və elmi pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirməyi və magistrlik dissertasiyasında istifadə etməyi və s.

Dissertasiya müəllifin müstəqil şəkildə əldə etdiyi faktları və materialları qısa, yığcam və inandırıcı şəkildə təqdim etmək bacarığını nümayiş etdirməlidir. Onun tərtibi elmi nəşrlərin tərtibatı qaydalarına uyğun olmalı və kompüter texnologiyasından istifadə edilməklə tərtib edilməli, qrafiklər, cədvəllər, çertyojlar, diaqramlar və hesablamalar, istifadə olunan ədəbiyyat siyahısı olan tam mətn şəklində müdafiəyə təqdim olunmalıdır. Magistr dissertasiyası psixoloji-pedaqoji elmi ictimaiyyətdə qəbul edilmiş terminologi-yadan istifadə etməklə elmi dildə təsvir edilməlidir. Dissertasiya işində əksini tapmalıdır:

• problemin aktuallığı;

• işlənmə səviyyəsi;

• obyekti və predmeti;

• elmi yeniliyi;

• nəzəri və praktik əhəmiyyəti;

• aprobasiyası;

• seçilmiş tədqiqat metodları;

• dissertasiyanın qarşıya qoyduğu məqsədə çatmağa yönəlmiş problemlərin qoyulması və həlli;

• əldə edilmiş nəticələr və onların şərhi;

• istifadə olunan məlumat mənbələri.

Magistr dissertasiyasının yazılması magistrantdan tələb edir:

- magistratura hazırlığı istiqamətində nəzəri və praktiki biliklərin sistemləşdirilməsi, möhkəmləndirilməsi və genişləndirilməsi, onların konkret tədqiqat problemlərinin həllində tətbiqi;

- tədqiq olunan psixoloji hadisə və ya prosesin elmi ideyasını və mahiyyətini əsaslandırmaq üçün nəzəri tədqiqatların aparılması;

- müstəqil iş aparmaq bacarıqlarının nümayiş etdirilməsi, tədqiq olunan psixoloji hadisə və ya prosesin təhlilini təmin edən metodların əsaslandırılması və istifadəsi, onun inkişaf meyllərinin və qanunauyğunluqlarının müəyyən edilməsi;

- tədqiq olunan psixoloji hadisənin və ya prosesin təkmilləşdirilməsi və inkişafı üçün konkret təkliflərin hazırlanması;

- magistrantın təhsil və ya elmi müəssisədə müstəqil işləməyə hazır olduğunu nümayiş etdirə bilməsi.

Magistr dissertasiyaları təhsil fəlsəfəsi, pedaqogika və psixologiya üzrə ədəbiyyatın - monoqrafik tədqiqatların, elmi dövri nəşrlərin, həm yerli, həm də xarici nəşrlərin, dərsliklərin, normativ-hüquqi aktların, aparılan eksperimentin və ya monitorinqin və s. dərindən öyrənilməsi və təhlili əsasında aparılır.

Magistr dissertasiyalarının mövzuları magistr hazırlığı proqramına uyğun olaraq fəaliyyət sahəsində peşəkar, konkret praktiki problemlərin həllinə yönəldilməlidir. Magistr dissertasiyasının mövzusu magistrantın tədqiq olunan bilik sahəsinin inkişafı üçün maraq doğuran və istifadəsindən müsbət nəticə verən tamamlanmış elmi və ya elmi-praktik işi tamamlamağa istiqamətləndirməsi və nəticələrinin praktikada tətbiqi ilə seçilməlidir. Bəzən gələcək fəaliyyət, peşəkar karyera dissertasiya işinin uğurlu müdafiəsindən deyil, mövzunun düzgün seçilməsindən asılı olur. Buna görə də dissertasiya mövzusunun seçiminə məsuliyyətlə və diqqətlə yanaşmaq lazımdır. Bundan əlavə, magistr dissertasiyalarının mövzusu potensial işəgötürənlərin, təşkilatların – magistrantların təcrübə keçdiyi yerlərin rəy sorğusunun nəticələrini nəzərə almalıdır.

Magistr dissertasiyasının tamamlanması təkcə elmi problemləri həll etməməli, həm də müəllifin elmi tədqiqat aparmaq, peşə problemlərini tanımaq, elmi problemləri müəyyən etmək və formalaşdırmaq bacarığını, onların həlli üsul və yollarını mənimsədiyini təsdiq etməlidir.

Magistr hazırlığı proqramında magistr dissertasiyaları üçün nümunə mövzuların siyahısı proqramın həyata keçirilməsində iştirak edən müəllimlərin təklifləri nəzərə alınmaqla hər il müvafiq kafedra rəhbəri tərəfindən təsdiq edilir. Magistratura işinin mövzusu tələbə tərəfindən magistraturada təhsilə başlayandan ilk ay ərzində elmi rəhbər və kafedra müdiri ilə birlikdə seçilir, eyni zamanda fərdi magistratura iş planı və elmi-tədqiqat iş qrafiki hazırlanır. Magistr dissertasiyası üçün mövzu seçərkən aşağıdakı prinsipləri rəhbər tutmaq faydalıdır:

- mövzunun aktuallığı, elmin mövcud vəziyyətinə və inkişaf perspektivlərinə uyğunluğu;
- mövzunun ədəbiyyatda işlənmə dərəcəsini və əhatəsini nəzərə almaq;
- təklif olunan mövzunun praktiki əhəmiyyəti və perspektivlərini müəyyən etmək;
- mövzunun araşdırılmasında və təhlilində müəllifin yanaşmasının müstəqilliyi və orijinallığını əks etdirmək;
- müasir tədqiqat metod və üsullarından, o cümlədən informasiya və məntiqi modellərdən və xüsusi kompüter proqramlarından istifadə etmək;
- iş aparılan təhsil təşkilatlarının maraq və tələbatlarını nəzərə almaq;
- əldə edilmiş nəticələrin və təkliflərin elmi konfranslarda məruzə edilməsi və ya elmi jurnallarda, toplularda hazırlanmış nəşrlər şəklində təcrübədən keçirilməsinə nail olmaq.

Bundan əlavə, magistr dərəcəsi müəllim üçün müvafiq təhsil səviyyəsinə malik olmayan digər işçilərə nisbətən əlavə üstünlükdür. Müasir mərhələ ali təhsil müəssisələrində müəllim işləmək üçün magistr dərəcəsinin olması mütləq şərtdir.

Magistratura səviyyəsində keyfiyyətin idarə edilməsi işində magistr dissertasiyalarının tərtibinin praktik yönümlülüyü və magistr tədqiqatlarının kafedranın elmi –tədqiqat proqramlarına inteqrasiyası nöqteyindən təhlil edilməsinə ehtiyac yaranır. Bu meyarlar tədqiqat vasitəsilə gələçək müəllimin "Mən" – konsepsiyasının formalaşmasına, magistrantın özünü gələçək alim və daim dəyişən dünyada çalışan peşəkar təcrübəci kimi tanımasına ciddi təsir göstərir.

Magistrant ixtisası üzrə dissertasiya yazmaq üçün təlim proqramının tədqiqat hissəsində aşağıdakı bacarıqlara malik olmalıdır:

- elmi tədqiqat üçün plan hazırlamaq və məqsəd müəyyən etmək;
- müasir kompüter texnologiyalarından istifadə etməklə bibloqrafik iş aparmaq;
- müasir tədqiqat metodlarını bilmək, lazımı tədqiqat metodlarını seçmək, konkret tədqiqat məqsədləri üçün onları müəyyən etmək;
- elmi və elmi-metodiki ədəbiyyatda mövcud olan məlumatları nəzərə almaqla təhlil və şərh etmək, əldə edilmiş nəticələri emal etmək;
- fərdi və qrup şəklində layihə və tədqiqat fəaliyyətini həyata keçirmək;
- görülən işlərin nəticələrini hesabat, tezis, məqalə və s. formasında tədqim etmək.

"Magistr dissertasiyasının tərtibi magistrantda iki qrup yanaşmanın birləşməsi nəticəsində keyfiyyətli işin əmələ gəlməsinə səbəb olur:

1. ümumi- bütün ixtisas işləri üçün invariant göstəricilər;
2. magistr tələbəsinin fəaliyyətinin təzahürlərini təsvir edən spesifik tədqiqat səriştəsi" (10, s.342).

Magistratura səviyyəsində ixtisasın Təhsil proqramında əksini tapan fənlərin tədrisi, eləcə də ali təhsil müəssisəsinin müəyyən etdiyi fənlərin mənimsənilməsi zamanı tələbənin mənimsədiyi biliklər, elmi-tədqiqat və elmi-pedaqoji təcrübə zamanı əldə etdiyi göstəricilər magistratın tədqiqatcılıq kompetensiyasının həm formalaşdırılması, həm də qiymətləndirilməsi üçün əsas vasitə hesab olunur.

## NƏTİCƏ.

Magistr dissertasiyası magistratura proqramının sonunda magistrantın hazırlığının keyfiyyətinin ayrılmaz göstəricisidir. Bu fəaliyyət növü müəllifin nəzəri bilik potensialını, müxtəlif anlayış və nəzəriyyələri şərh etmək bacarığını, tədqiq edilən problemin yaradıcı şəkildə qavramaq bacarığını və ixtisas üzrə bilik səviyyəsini, potensialını göstərmək üçün nəzərdə tutulmuşdur. Elmi tədqiqatların məqsədi həqiqəti müəyyən etmək, bu və ya digər fikri təsdiqləmək deyil, əlavə arqumentlər əldə etmək,

yeni konseptual mövqeləri təsdiqləmək, elmi ideya və texnologiyaların tətbiq dairəsini müəyyən etməkdir.

Magistr dissertasiyası müəllif tərəfindən elmi müddəaların toplusunu özündə əks etdirən, daxili birliyə malik olan, magistrantın şəxsi töhfəsini və müstəqil elmi tədqiqat aparmaq qabiliyyətini göstərən, nəzəri bilikləri, təcrübə və texniki bacarıqları özündə əks etdirən ictimai müdafiə üçün irəli sürülmüş ideyalar toplusudur. Eyni zamanda, magistr dissertasiyası müstəqil tədqiqat işi kimi sərbəst elmi tədqiqat aparmağa və konkret elmi problemləri həll etməyə qadir olan müəyyən edilmiş tədqiqatçı kimi məzunun elmi ixtisas səviyyəsini təqdim edir.

**TƏKLİFLƏR.**

Pedaqoji universitetlərdə magistrantların elmi-tədqiqat fəaliyyəti üçün yüksək keyfiyyətli hazırlığın təmin edilməsi aşağıdakı didaktik və təşkilati şərtlər yerinə yetirildikdə daha faydalı nəticələr əldə etməyə səbəb ola bilər:

- tədris prosesinin strukturu tədqiqat kompetensiyalarının inkişafına yönəldildikdə;
- tədqiqat probleminə təlimin struktur vahidi kimi baxıldıqda;
- tədris prosesi kontekstli, layihə əsaslı, situasiyalı, əks etdirən öyrənmə metodları vasitəsilə qurulduqda;
- tədris prosesinə tədqiqat kompetensiyaları üçün ekspert qiymətləndirməsi və özünüqiymətləndirmə vasitələri daxil edildikdə;
- universitetlərin professor –müəllim heyətinin, mövcud kollektivlərinin elmi-tədqiqat fəaliyyətinə magistrantların cəlb edilməsi təmin edildikdə;
- magistrantın elmi və tədqiqat işinə fərdi dəstək (nəzarət, moderator, elmi rəhbər) göstərildikdə;
- magistrantlara elmi işlərini müxtəlif mədəni və elmi formalarda təqdim etmək imkanının təmin edildikdə.

Seçilmiş şərtlərin məhsuldarlığını müəllimlərin, elmi rəhbərin və magistrantların tədqiqat işlərində iştirakından məmnunluqlarının artması, onların tədqiqat motivasiyasının yüksəldilməsi və magistr dissertasiyalarının keyfiyyəti ilə qiymətləndirmək olar.

ƏDƏBİYYAT:


1. Ali təhsil pilləsinin dövlət standartı. Magistratura səviyyəsinin ixtisas üzrə Təhsil Proqramı. (2012). https://e-qanun.az/framework/19531
2. Mehrabov, A. və b.(2006). Pedaqoji texnologiyalar. Bakı.
3. Nəzərov, M. və Quliyev, N. (2019) Pedaqoji texnologiyalar. Bakı. ADPU nəş.
4. Rüstəmov, F. və Dadaşova, T. (2007). Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik. Bakı: “Nurlan” nəş.,
5. Əhmədov, H. və Zeynalova, N. (2016) Pedaqogika. Dərslik. Bakı, “Elm və Təhsil”.

6. Təhsil tədqiqatları: nəzəri və prakatik yanaşmalar. (2019) Monoqrafiya. (nəşrə haz.. İ.H.Cəbrayılov). Bakı: Mütərcim, s.35.
7. Богословский, В. u Лаптев, В. (2000) Вузовская наука во взаимосвязи с подготовкой кадров высшей квалификации // Подготовка специалиста в области образования: Научноорганизационные проблемы подготовки кадров высшей квалификации: Коллективная монография. - Вып. IX. - с. 45 - 52.
8. Диагностика и анализ исследовательской деятельности преподавателя (2018) // * [Электронный ресурс]: http://edu.donpac.RU/journal/ 6/gl3_p2. Html
9. Тряпицына, А. U Писарева С. (2002). Проблемы экспертизы качества исследований диссертационными советами II Педагогика на рубеже веков. - Сборник научных статей аспирантов. Выпуск 2. / Под ред. Головинской Е.В., Козловой А.«Образование - Культура», С. 3-18.
10. Педагогика и психология высшей школы. (1998). Серия «Учебники, учебные пособия». - Ростов-на-Дону: «Феникс».

**РЕЗЮМЕ**

**РОЛЬ МАГИСТЕРСКОЙ ДИССЕРТАЦИИ В ФОРМИРОВАНИИ ПРОФЕССИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ МАГИСТРОВ-ПЕДАГОГИ**

Лала Захир гызы Аллахвердиева

В статье рассматривается роль магистерской диссертации в формировании профессиональных компетенций выпускников педагогических вузов. Магистерская диссертация, являющаяся проявлением научно-исследовательской деятельности аспирантов, представляет собой выпускную специализированную работу, демонстрирующую уровень профессиональной подготовки студента, его способность к проведению самостоятельных научных исследований и решению практических задач в сфере профессиональной деятельности. Магистерская диссертация является интегральным показателем качества подготовки выпускника по окончании магистратуры. Данный вид деятельности призван продемонстрировать теоретический потенциал знаний автора, умение интерпретировать различные концепции и теории, способность творчески воспринимать изучаемую проблему, уровень знаний и потенциал по специальности.

Систематизация, закрепление и расширение теоретических и практических знаний, необходимых аспиранту по направлению подготовки магистра для написания магистерской диссертации, и их применение при решении конкретных научных задач; проведение теоретических исследований с целью обоснования научной идеи и сущности изучаемого психологического явления или процесса; проявление умения вести самостоятельную работу,

обоснование и использование методов, обеспечивающих анализ изучаемого психологического явления или процесса, выявление тенденций и закономерностей его развития; подготовка конкретных предложений по совершенствованию и развитию изучаемого психологического явления или процесса; В статье обосновывается мысль о том, что аспирант должен уметь продемонстрировать готовность к самостоятельной работе в образовательном или научном учреждении.

В статье анализируются требования к подготовке магистерской диссертации, компетенции, которые необходимо сформировать у магистра в процессе подготовки диссертации, роль и функции научного руководителя при подготовке магистерской диссертации, компетенции, предусмотренные образовательной программой специальности при подготовке диссертации, и другие вопросы.

**Ключевые слова:** *магистерская диссертация, профессиональные компетенции, образовательная программа, научно-исследовательская работа, исследовательские навыки.*

## SUMMARY

## THE ROLE OF THE MASTER'S THESIS IN THE FORMATION OF PROFESSIONAL COMPETENCIES OF MASTER TEACHERS

**Lala Zahir gizi Allahverdieva**

The article considers the role of the master's thesis in the formation of professional competencies of graduates of pedagogical universities. The master's thesis, which is a manifestation of the research activities of postgraduate students, is a final specialized work demonstrating the level of professional training of the student, his or her ability to conduct independent scientific research and solve practical problems in the field of professional activity. The master's thesis is an integral indicator of the quality of a graduate's preparation upon completion of the master's program. This type of activity is designed to demonstrate the theoretical potential of the author's knowledge, the ability to interpret various concepts and theories, the ability to creatively perceive the problem under study, the level of knowledge and potential in the specialty. Systematization, consolidation and expansion of theoretical and practical knowledge necessary for a postgraduate student in the direction of master's training to write a master's thesis, and their application in solving specific scientific problems; conducting theoretical research in order to substantiate a scientific idea and the essence of the psychological phenomenon or process under study; demonstration of the ability to conduct independent work, substantiation and use of methods that ensure the analysis of the psychological phenomenon or process being studied, identification of trends and patterns of its development; preparation of specific proposals for the improvement and development of the psychological phenomenon or process being studied; The article substantiates the idea that a

postgraduate student should be able to demonstrate readiness for independent work in an educational or scientific institution. The article analyzes the requirements for the preparation of a master's thesis, the competencies that must be developed in a master's student during the preparation of the dissertation, the role and functions of the supervisor in the preparation of a master's thesis, the competencies provided for by the educational program of the specialty in the preparation of the dissertation, and other issues.

**Key words:** *master's thesis, professional competencies, educational program, scientific research work, research skills*